# Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi

# Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların, nəqliyyat vasitələrinin və digər əşyaların qəbulu, uçotu, qiymətləndirilməsi, satışı (təhvil verilməsi) və məhv edilməsinin təşkili barədə

## Əmr № 28

***12 aprel 2000-ci il***

Gömrük işi sahəsində cinayətlər və gömrük qaydalarının pozulması haqqında işlər üzrə Azərbaycan Respublikası məhkəmələrinin və gömrük orqanlarının qərarları əsasında müsadirə edilmiş, girov predmeti də daxil olmaqla, mövcud gömrük qanunvericiliyinə uyğun olaraq dövlət mülkiyyətinə keçirilmiş malların, nəqliyyat vasitələrinin və digər əşyaların uçotunu, qiymətləndirilməsi və satışını (təhvil verilməsini), habelə məhv edilməsi işini təkmilləşdirmək və bu sahədə maliyyə nəzarətini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 9-cu maddəsinə uyğun olaraq **əmr edirəm:**

1. «Gömrük işi sahəsində cinayətlər və gömrük qaydalarının pozulması haqqında işlər üzrə Azərbaycan Respublikası məhkəmələrinin və gömrük orqanlarının qərarları əsasında müsadirə edilmiş, girov predmeti də daxil olmaqla, mövcud gömrük qanunvericiliyinə uyğun olaraq dövlət mülkiyyətinə keçirilmiş malların, nəqliyyat vasitələrinin və digər əşyaların qəbulu, uçotu, qiymətləndirilməsi, satışı (təhvil verilməsi) və məhv edilməsi Qaydaları» (bundan sonra — Qaydalar) təsdiq edilsin (əlavə olunur).

2. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların saxlanılması və satış üçün buraxılması (təhvil verilməsi) bu Qaydaların 1.6 bəndinə müvafiq olaraq «Satıcı» qismində «Azərterminalkompleks» Xarici Əlaqələr Birliyinə həvalə edilsin.

3. Bütün gömrük orqanları rəhbərlərinə tapşırılsın ki, müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malları onların bu Qaydalara uyğun saxlanılması və satışa buraxılması üçün «Azərterminalkompleks» XƏB-ə təhvil versinlər.

4. «Azərterminalkompleks» XƏB-ə (Q.Əliyev) tapşırılsın ki:

- müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların qəbulu, uçotu, qiymətləndirilməsi, satışının (təhvil verilməsinin) təşkili və məhv edilməsini bu Qaydalara uyğun olaraq aparsın;
- müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların satışı üzrə müqavilə öhdəliklərinin yerinə yetirilməsinə daimi nəzarət etsin;

- Azərbaycan Respublikasının ərazisində istifadəsi qadağan olunmuş, habelə satış üçün yararsız olan malların müəyyən edilmiş qaydada məhv edilməsini təşkil etsin;
- müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların uzun müddət saxlanılmaqla xarab olmasının qarşısının alınması üçün zəruri tədbirlər görsün;
- xüsusi razılıq (lisenziya) tələb olunan malların satışını mövcud qanunvericiliyə uyğun olaraq təşkil etsin;
- Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan olunan silahların müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə təhvil edilməsini təmin etsin;
- dəyəri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş həddən yuxarı olan malların satışını tender qaydalarına uyğun təşkil etsin;
- gömrük orqanları tərəfindən müsadirə edilmiş və girov predmeti də daxil olmaqla, mövcud gömrük qanunvericiliyinə uyğun olaraq dövlət mülkiyyətinə keçirilmiş malların satışından daxil olan vəsaitin 3 bank günü ərzində təyinatı üzrə köçürülməsini təmin etsin;
- hər ay (hesabat ayının 15-dən gec olmayaraq) müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların satışından əldə edilmiş vəsait məbləği və mal qalığı haqqında müəyyən olunmuş formada hesabatı Komitənin Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsinə təqdim etsin.

5. İşlər İdarəsi (R.Zalov) Ədliyyə Nazirliyində qeydə alındıqdan sonra Əmrin və Qaydaların surətinin müvafiq strukturlara göndərilməsini təmin etsin.

6. Komitənin 22.11.1996-cı il tarixli 772 №-li əmri qüvvəsini itirmiş hesab edilsin.

7. Əmrin icrasına nəzarət Komitə Sədrinin birinci müavini A.Əliyevə tapşırılsın.

***Komitənin sədri***

***K.F.HEYDƏROV.***

---

| | |
|---|---|
| ***Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.*** | ***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində təsdiq edilmişdir.*** |
| ***Qeydiyyat №-si 1137*** | ***Əmr № 28*** |
| ***2000-ci il*** | ***12 aprel 2000-ci il*** |
| ***Nazir*** | ***Sədr*** |
| ***F.MƏMMƏDOV*** | ***K.F.HEYDƏROV*** |

***Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmışdır.***

***Nazir***

***Ə.ƏLƏKBƏROV***

# Gömrük işi sahəsində cinayətlər və gömrük qaydalarının pozulması haqqında işlər üzrə Azərbaycan Respublikası məhkəmələrinin və gömrük orqanlarının qərarları əsasında müsadirə edilmiş, girov predmeti də daxil olmaqla mövcud gömrük qanunvericiliyinə uyğun olaraq, dövlət mülkiyyətinə keçirilmiş malların, nəqliyyat vasitələrinin və digər əşyaların qəbulu, uçotu, qiymətləndirilməsi, satışı (təhvil verilməsi) və məhv edilməsi
# Qaydaları

## *1. Ümumi müddəalar*

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 53-cü və 54-cü fəslinin 398-ci maddəsinin müddəalarına uyğun olaraq işlənib hazırlanmaqla, gömrük işi sahəsində cinayətlər və gömrük qaydalarının pozulması haqqında işlər üzrə Azərbaycan Respublikası məhkəmələrinin və gömrük orqanlarının qərarları əsasında müsadirə edilmiş, gömrük vergi və rüsumlarının ödənilməsinin təmin edilməsi məqsədi ilə bağlanmış girov müqavilələri üzrə öhdəliklərin yerinə yetirilməməsi, habelə şəxsin dövlətin xeyrinə maldan imtina gömrük rejimini seçməsi ilə bağlı dövlət mülkiyyətinə keçirilmiş malların, nəqliyyat vasitələrinin və digər əşyaların (bundan sonra — müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş mallar) qəbulu, uçotu, qiymətləndirilməsi, satışının təşkili və məhv edilməsinin ümumi prinsiplərini müəyyən edir.

1.2. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların satışından əldə edilən vəsait Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf fonduna, girov predmeti kimi, həmçinin dövlətin xeyrinə maldan imtina gömrük rejiminin seçilməsi ilə bağlı dövlət mülkiyyətinə keçirilmiş malların satışından əldə edilən vəsait isə dövlət büdcəsinə köçürülür.

1.3. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların daşınması, saxlanması, satış üçün hazırlanması, satışının təşkili və məhv edilməsi ilə bağlı iqtisadi cəhətdən əsaslandırılmış xərclər müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların satışından əldə edilən vəsait hesabına ödənilir.

1.4. Girov predmeti kimi dövlət mülkiyyətinə keçirilmiş malların satışından əldə edilən vəsait girov müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilməsi üçün müvafiq gömrük orqanının hesabına köçürülür.

1.5. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş mallar gömrük auksionları, əmtəə birjaları, yaxud ticarət müəssisələri və təşkilatları, o cümlədən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi (DGK) tərəfindən yaradılan təşkilatlar vasitəsi ilə, bazar konyunkturu nəzərə alınmaqla satılır.

1.6. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların saxlanması və satış üçün buraxılması Azərbaycan Respublikası qanunvericiliyində digər hallar nəzərdə

tutulmamışdırsa, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin müəyyən etdiyi müvafiq təsərrüfat strukturu (bundan sonra — «Satıcı») vasitəsi ilə həyata keçirilir.

## *2. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların qəbulu və uçotu*

2.1. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş mallar bütün gömrük orqanlarından «Satıcı»nın müəyyən etdiyi anbarlara malları müşayiət edən aşağıdakı sənədlərlə birlikdə qəbul edilir:

- təhvil veriləcək müsadirə edilmiş malların adı (artikulu), modeli, əmtəə markası, kəmiyyəti, həcmi və malları təhvil verən gömrük orqanı əməkdaşı haqqında məlumatlar göstərilməklə «Satıcı»nın adına gömrük orqanının məktubu;
- həmin malların müsadirə edilməsi və dövlət mülkiyyətinə keçirilməsi haqqında məhkəmə, yaxud gömrük orqanı tərəfindən çıxarılmış və qanunvericilikdə müəyyən edilmiş qaydada qüvvəyə minmiş hökm və qərarların surəti;
- girov predmeti kimi satışa çıxarılmış mallarla əlaqədar bağlanmış girov müqaviləsinin və girov müqaviləsində göstərilən malların Yük Gömrük Bəyannaməsinin (YGB) surəti;
- həmin malların mənşə və keyfiyyət sertifikatları, həmçinin əmtəə ekspertizası aktları;
- dövlətin xeyrinə maldan imtina gömrük rejimi seçilmiş mallar üçün bu Qaydaların 2.1 yarımbəndində nəzərdə tutulan sənədlərlə yanaşı, seçilmiş rejimi təsdiq edən YGB-si.

2.2. «Satıcı» təşkilat gömrük orqanları tərəfindən göndərilən müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların istifadə müddətinin ötməsinə görə yararsız (o cümlədən tez xarab olan ərzaq məhsulları) olduğunu və malları müşayiət edən sənədlərin düzgün olmadığını müəyyən etdikdə, həmin malları anbara qəbul etməkdən imtina edir və imtinanın səbəbləri haqqında gömrük orqanına yazılı şəkildə məlumat verir.

2.3. «Satıcı»nın anbarına qəbul edilən müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların hər bir partiyasına bu Qaydaların 1 №-li Əlavəsi ilə müəyyən edilmiş şəkildə 2 nüsxədən ibarət qəbuletmə aktı tərtib olunur. Qəbuletmə aktı malları təhvil verən gömrük orqanının səlahiyyətli nümayəndəsi və «Satıcı»nın təşkil etdiyi komissiya üzvləri tərəfindən imzalanır. Həmin akt «Satıcı» təşkilatın rəhbəri tərəfindən təsdiq edilir və möhür vurulur. Aktın imzalanmış və təsdiq edilmiş birinci nüsxəsi malları təhvil verən gömrük orqanının nümayəndəsinə verilir.

2.4. «Satıcı» anbara qəbul olunmuş, müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların bu Qaydaların 2 №-li Əlavəsi ilə müəyyən edilmiş formada «Anbar qeydiyyat vərəqəsi» üzrə uçotunu aparır.

«Satıcı», anbara qəbul olunan müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların «Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların anbar qeydiyyatı Kitabı»nda da qeydiyyatını aparır. «Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların qeydiyyat Kitabı» bu Qaydaların 3 №-li Əlavəsi ilə müəyyən edilmiş formada tərtib olunur.

«Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların anbar qeydiyyatı Kitabı»nın səhifələri nömrələnir, qaytanlanır və qaytanların ucları «Satıcı»nın gerbli dairəvi möhürü ilə möhürlənir.

2.5. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların uçotu «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununa və digər qanunvericilik aktlarına uyğun olaraq aparılır.

2.6. «Satıcı» müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların uçotunu aparmaq üçün mühasibat balansında balansarxası hesab açır və bu hesabda həmin malların dəyərini göstərir.

2.7. «Satıcı» təşkilat müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların satışından daxil olan vəsait üçün ayrıca depozit hesabı açır və hər ayın sonunda 3 bank günündən gec olmayaraq, daxil olan vəsaiti DGK-nın (gömrük sisteminin büdcədənkənar inkişaf fondu üçün) və dövlət büdcəsinə keçirilməsi üçün müvafiq gömrük orqanının cari hesabına köçürür.

2.8. «Satıcı» hər ay (hesabat ayının 15-dən gec olmayaraq) müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların satış üçün buraxılması və qalığı haqqında DGK-nə bu Qaydaların 4 №-li əlavəsi ilə müəyyən edilmiş şəkildə hesabat təqdim edir.

2.9. Müsadirə edilmiş malların satışından DGK-nın büdcədənkənar inkişaf fonduna köçürülən vəsaitin üzləşdirilməsi üçün «Satıcı» tərəfindən hər ay hesabat təqdim olunur.

## *3. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların satış üçün hazırlanması*

3.1. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş mallar «Satıcı»nın anbarına qəbul edildikdən sonra mal qrupları üzrə çeşidlənir. Zəruri hallarda satış üçün yararlı hala gətirilir — yuyulur, təmizlənir, yağlanır, qablaşdırılır və s.

3.2. Qanunvericiliklə nəzərdə tutulmuş hallarda müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların qiymətləndirilməsindən qabaq «Satıcı» həmin malların (əsasən ərzaq və qida məhsullarının) sertifikatlaşdırılmasını həyata keçirir.

3.3. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların «Satıcı»nın anbarında saxlanması üçün mövcud şərait həmin malların əmtəə göstəricilərinin və keyfiyyətinin irəli sürülən tələblər səviyyəsində qalmasına uyğun olmalıdır.

3.4. «Satıcı» onun anbarında saxlanılan müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların keyfiyyətinin və əmtəə görünüşünün lazımi şəkildə qorunub saxlanması, zəruri hallarda korlanmasının qarşısının alınması üçün müvafiq tədbirlər görülməsinə məsuliyyət daşıyır.

## *4. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların qiymətlərinin müəyyən edilməsi*

4.1. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların sərbəst bazar topdansatış qiymətləri bilavasitə, «Satıcı»nın təşkil etdiyi komissiyanın, DGK-nin səlahiyyətli nümayəndəsinin və müstəqil ekspertlərin iştirakı ilə (bundan sonra — Qiymətləndirmə komissiyası) müəyyən edilir.

4.2. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların topdansatış qiymətlərini müəyyən edərkən «Qiymətləndirmə komissiyası» aşağıdakıları nəzərə alır:

- malın keyfiyyətini və əmtəə göstəricilərini;
- malın qablaşdırılmasını, komplektliyini, keyfiyyət sertifikatının olub-olmamasını;
- malın istehsal edildiyi ölkəni, istehsal tarixini, saxlama müddətini;
- malların miqdarını;
- mövsümünü və bazardakı tələb-təklifini;
- sərbəst bazar topdansatış qiymətlərini.

4.3. İstifadə edilmiş, zədələnmiş və qüsurlu halda müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların topdansatış qiymətlərini müəyyən edərkən «Qiymətləndirmə komissiyası» aşağıdakıları nəzərə alır:

- mallar öz keyfiyyətini nisbətən itirdikdə, aşınma dərəcəsini;
- xırda qüsurlar olduqda, onun aradan qaldırılmasına sərf olunan vəsaitin həcmini, habelə əmtəənin xarici görünüşünün itirilməsi dərəcəsini;
- bazarda analoji keyfiyyətsiz mallara olan tələbatı və qiymətləri;
- malın qablaşdırılması vəziyyətini və keyfiyyətinə təminat müddətinin olub-olmamasını və s.

4.4. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların qiymətlərinin müəyyən edilməsi üçün onların laboratoriyada tədqiq edilməsi zərurəti yarandıqda, həmin mallar tədqiq edilmək üçün müqavilə əsasında bitərəf təşkilatların laboratoriyalarına verilir. «Qiymətləndirmə komissiyası» tərəfindən laboratoriya tədqiqatlarının nəticələri əks olunan akt alındıqdan sonra həmin malların bazar topdansatış qiymətləri müəyyən edilir.

4.5. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların qiymətləri Azərbaycan Respublikasının milli valyutası ilə — manatla göstərilir.

4.6. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş elmi, tarixi, bədii və muzey əhəmiyyətli əşyalar Mədəniyyət Nazirliyinin və digər müvafiq dövlət təşkilatlarının ekspert komissiyaları tərəfindən tədqiq olunur və qiymətləndirilir.

Ekspert komissiyası əşyaların ekspertizadan keçirilməsi haqqında 2 nüsxədən ibarət akt tərtib edir. Həmin aktda ekspertizadan keçirilən əşya təsvir olunur, qiymətləndirilir və onun hansı təşkilata təhvil verilməsi haqqında məsləhət verilir.

DGK-nin göstərişi ilə «Satıcı» tərəfindən elmi, tarixi, bədii və muzey əhəmiyyətli hesab edilmiş əşyalar əvəzsiz olaraq muzeylərə, kitabxanalara və digər elmi təşkilatlara 2 nüsxədən ibarət təhvil-təslim aktı tərtib olunmaqla təhvil verilir.

Təhvil verilən əşyaların fotoşəkilləri çəkilir və həmin fotoşəkillər əşyaları təhvil götürən təşkilatın səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır və möhürlə təsdiq olunur.

Fotoşəkillər və təhvil-təslim aktının bir nüsxəsi «Satıcı»da saxlanır.

4.7. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş dini əşyalar Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dini işlər üzrə idarənin məsləhəti və DGK-nin göstərişi ilə 2 nüsxədən ibarət ikitərəfli təhvil-təslim aktı tərtib edilməklə dini təşkilatlara əvəzsiz olaraq verilir. Həmin akt tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imzalanır.

Təhvil verilən əmlakların fotoşəkilləri çəkilir və həmin fotoşəkillər əmlakı təhvil götürən dini təşkilatın səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır və möhürlə təsdiq olunur.

Fotoşəkillər və təhvil-təslim aktının bir nüsxəsi «Satıcı»da saxlanır.

4.8. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş hərbi və kriminal xarakterli əmlaklar DGK-nin göstərişi ilə əvəzsiz olaraq Müdafiə və Daxili İşlər Nazirliklərinə təhvil verilir.

Təhvil verilən əmlakların fotoşəkilləri çəkilir və həmin fotoşəkillər əmlakı təhvil götürən nazirliklərin səlahiyyətli nümayəndələri tərəfindən imzalanır və möhürlə təsdiq olunur.

Həmin əmlakların əvəzsiz olaraq təhvil verilməsi haqqında 2 nüsxədən ibarət təhvil-təslim aktı tərtib olunur və hər iki tərəfdən imzalanır.

Fotoşəkillər və təhvil-təslim aktının bir nüsxəsi «Satıcı»da saxlanır.

4.9. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş elmi, tarixi, bədii, muzey əhəmiyyətli, habelə dini sitayiş, hərbi və kriminal xarakterli müsadirə edilmiş əşyaların qəbulu, saxlanması, daşınması, ekspertizadan keçirilməsi və müvafiq təşkilatlara əvəzsiz olaraq verilməsi ilə bağlı xərclər müsadirə edilmiş digər malların satışından əldə olunan vəsait hesabına ödənilir.

## *5. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş mallarların yenidən qiymətləndirilməsi*

5.1. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların yenidən qiymətləndirilməsi bilavasitə «Qiymətləndirmə komissiyası» tərəfindən həyata keçirilir.

5.2. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların yenidən qiymətləndirilməsinə aşağıdakı hallarda yol verilir:

- müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş ərzaq malları saxlanma müddəti və saxlanma şəraiti nəzərə alınmaqla ilkin qiymətləndirmədən sonrakı 15 gün müddətində satıldıqda;
- müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş sənaye malları, mürəkkəb quruluşlu texniki mallar və avadanlıqlar ilkin qiymətləndirmədən sonrakı 30 gün müddətinə satılmadıqda;
- mövsümün və yaxud bazar konyunkturunun dəyişməsi ilə əlaqədar həmin mallara tələbat dəyişdikdə;
- bazarda mövcud olan orta topdansatış qiymətləri «Satıcı»nın anbarında olan müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş analoji mallara, yaxud eyni tipli mallara qoyulmuş qiymətlərdən aşağı olduqda;
- müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların keyfiyyətində və əmtəə görünüşündə mənfi dəyişikliklər baş verdikdə.

5.3. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların yenidən qiymətləndirilməsi «Satıcı»nın anbarında həyata keçirilir.

Belə hallarda «Satıcı»nın malların satışı ilə bilavasitə məşğul olan strukturu həmin malların ilkin müəyyən olunmuş qiymətlərə satılmaması səbəblərini göstərməklə onun yenidən qiymətləndirilməsinə göstəriş vermək üçün «Satıcı» təşkilatın rəhbərliyinə yazılı şəkildə təkliflər verir.

«Satıcı» təşkilatın rəhbəri DGK ilə razılaşdırılmış müvafiq göstərişi ilə müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların yenidən qiymətləndirilməsinə icazə verir.

5.4. «Satıcı» müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların tez satılmasını, habelə onların anbarlarda və ticarət obyektlərində yığılıb qalmasını istisna edən qiymətləndirmə siyasəti yeridilməsi üçün məsuliyyət daşıyır.

## *6. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların satışının təşkil edilməsi və anbardan buraxılması*

6.1. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların satışı bu Qaydalarla müəyyən edilmiş formada təşkil edilir.

6.2. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malları aşağıdakılar satın ala bilər:

- dövlət təşkilatları və müəssisələri;
- kommersiya strukturları, firma və mağazalar;
- Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən xarici ölkə şirkət və kompaniyaları;
- vergi orqanları tərəfindən sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş xüsusi lisenziyası olan istənilən fiziki şəxs;
- bu Qaydaların 6.3-cü bəndində göstərilən hallar istisna olmaqla, Azərbaycan Respublikasının vətəndaşı olan istənilən fiziki şəxs özünün şəxsi istifadəsi üçün.

6.3. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş mallar DGK-nın əməkdaşlarına, onun tabeçiliyində olan təşkilatların işçilərinə və həmin malların əvvəlki sahiblərinə satıla bilməz.

6.4. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların «Satıcı»nın anbarından buraxılması həmin malların əmtəə-nəqliyyat qaiməsində göstərilən dəyərinin alıcı tərəfindən Azərbaycan Respublikasının milli valyutası — manatla, qabaqcadan, nağd yolla «Satıcı»nın kassasına, yaxud bankdakı hesabına köçürmə yolu ilə ödənildikdən sonra əmtəə-nəqliyyat qaiməsi əsasında həyata keçirilir.

6.5. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malları almaq üçün alıcı aşağıdakı sənədləri təqdim etməlidir:

- alıcının almaq istədiyi malların adları göstərilməklə «Satıcı» təşkilatın rəhbərinin adına yazdığı məktub;
- «Satıcı»nın anbarında olan malı alan şəxsin adına onun bilavasitə təmsil etdiyi təşkilat tərəfindən verilmiş etibarnamə;
- alqı-satqısına xüsusi lisenziya tələb olunan malları almaq istəyən təşkilatların müvafiq dövlət orqanlarından aldığı lisenziyanın və identifikasiya nömrəsini (VÖİN) təsdiq edən sənədin surəti;
- fəaliyyət xüsusi lisenziya tələb olunan istehsalat sahələrində istifadə etmək üçün xammal şəklində olan müsadirə edilmiş malları almaq istəyən təşkilatların müvafiq dövlət orqanlarından aldığı lisenziyanın və identifikasiya nömrəsini (VÖİN) təsdiq edən sənədin surəti;
- fiziki şəxs tərəfindən «Satıcı» təşkilatın rəhbərinin adına malların adları göstərilməklə yazılmış ərizə, həmçinin xüsusi sahibkarlıq fəaliyyətinə icazə verən lisenziyanı və identifikasiya nömrəsini (VÖİN) təsdiq edən sənədin surəti.

6.6. «Satıcı»nın anbar təsərrüfatı müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların qəbul edilməsi və satılması haqqında bu Qaydaların 5 №-li Əlavəsi ilə müəyyən edilmiş formada «Satıcı» təşkilatın rəhbərliyinə təqvim ilinin hər ayı üçün növbəti ayın 10-a qədər hesabat verir.

## *7. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların silinməsi və məhv edilməsi*

7.1. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş mallar keyfiyyətini itirməsi, xarab olması, istifadə müddətinin ötməsi və s. səbəblərdən öz təyinatına görə istifadə edilə bilmədikdə, müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş malların silinməsi və məhv edilməsi yalnız dövlət orqanlarının həmin malların satışının qadağan edilməsi, yaxud mal dövriyyəsindən çıxarılması haqqında müvafiq göstərişləri, habelə müstəqil ekspertlərin və digər qeyri-asılı ixtisaslaşmış laboratoriyaların həmin malların istifadə üçün yararsız olması haqqında rəyi alındıqdan sonra həyata keçirilə bilər.

7.2. «Satıcı» təşkilatın təşkil etdiyi Komissiya ekspertiza rəyi alındıqdan sonra, DGK-nin səlahiyyətli nümayəndəsinin iştirakı ilə, müəyyən edilmiş qaydada həmin malların məhv edilməsini həyata keçirir və bu Qaydaların 6 №-li Əlavəsi ilə müəyyən edilmiş formada 2 nüsxədən ibarət məhvetmə haqqında akt tərtib edir. Həmin akt komissiyanın sədri, üzvləri və DGK-nin səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır və «Satıcı» təşkilatın rəhbəri tərəfindən təsdiq edilir. Bu akt əsasında məhv edilmiş malların anbardan silinməsi həyata keçirilir.

7.3. Öz təyinatı üzrə istifadəsi mümkün olmayan müəyyən kateqoriya mallar, təkrar istifadə üçün həmin malların tədarükü ilə məşğul olan müəssisələrə satıla bilər. Həmin malların təkrar emalından əldə edilmiş gəlirin bölüşdürülməsi «Satıcı» ilə tədarükçü müəssisə arasında bağlanmış müqavilə şərtləri ilə müəyyən edilir.

7.4. Zəruri hallarda müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş mallar məhv edilməzdən əvvəl onların fotoşəkli çəkilir. Həmin fotoşəkillər məhvetmə komissiyasının üzvləri və DGK-nin səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır və məhvetmə aktına əlavə olunur.

7.5. Müsadirə edilmiş və dövlət mülkiyyətinə keçirilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarında nəzərdə tutulan qaydada həyata keçirilir.

---

*«Gömrük işi sahəsində cinayətlər və gömrük qaydalarının pozulması haqqında işlər üzrə Azərbaycan Respublikası məhkəmələrinin və gömrük orqanlarının qərarları əsasında müsadirə edilmiş, habelə malların gömrük rəsmiləşdirilməsi zamanı bağlanmış girov müqavilələri üzrə müqavilə öhdəliklərinin yerinə yetirilməməsi nəticəsində satışa çıxarılmış, həmçinin dövlətin xeyrinə maldan imtina gömrük rejimi üzrə*

*daxil olmuş malların, nəqliyyat vasitələrinin və digər əşyaların qəbulu, uçotu, qiymətləndirilməsi, satışı və məhv edilməsi Qaydaları»na*
*Əlavə № 1*

*Təsdiq edirəm:*
*«Azərterminalkompleks» XƏB-nin direktoru*
*________________________*
*«____»_________________*
*200_____ il*

# Malların anbara qəbul edilməsi haqqında AKT № ______

Biz aşağıda imza edənlər:

1. Komissiyanın sədri: ____________________________________________________

2. _________________________________________________________________________

3. _________________________________________________________________________

4. _________________________________________________________________________

5. _________________________________________________________________________

Bu aktı tərtib etdik, ondan ötrü ki, aşağıda adları göstərilən müsadirə edilmiş mallar «Azərterminalkompleks» XƏB-nin ____________________ anbarına təhvil verildi:

| **Sıra №-si** | **Malın adı** | **Ölçü vahidi** | **Miqdarı** | **Qərarın** | | **Qeyd** |
|---|---|---|---|---|---|---|
| | | | | **№-si** | **tarixi** | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

Aktın düzgünlüyünü öz imzalarımızla təsdiq edirik:

1. __________________________

2. __________________________

3. __________________________

4. __________________________

5. ___________________________

---

*«Gömrük işi sahəsində cinayətlər və gömrük qaydalarının pozulması haqqında işlər üzrə Azərbaycan Respublikası məhkəmələrinin və gömrük orqanlarının qərarları əsasında müsadirə edilmiş, habelə malların gömrük rəsmiləşdirilməsi zamanı bağlanmış girov müqavilələri üzrə müqavilə öhdəliklərinin yerinə yetirilməməsi nəticəsində satışa çıxarılmış, həmçinin dövlətin xeyrinə maldan imtina gömrük rejimi üzrə daxil olmuş malların, nəqliyyat vasitələrinin və digər əşyaların qəbulu, uçotu, qiymətləndirilməsi, satışı və məhv edilməsi Qaydaları»na*
*Əlavə № 2*

***«____»___________________ 200_____ il***

_________________________________________________________________

*(Satıcı təşkilatın adı)*

# Müsadirə edilmiş malların anbar qeydiyyat Vərəqəsi №______

Malın adı _______________________________________________________________

| Haradan daxil olmuşdur | Anbarın adı | Malın qəbul edildiyi tarix | Malın müsadirə edilməsi haqqında qərar | | Qiymətləndirmə haqqında sənəd | | Yenidən qiymətləndirmə haqqında sənəd | | Ölçü vahidi | Sayı | Qiyməti | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | tarixi | №-si | tarixi | №-si | tarixi | №-si | | | | |
| | | | | | | | | | | | | |

| Sıra №-si | Qeyd tarixi | Qaimənin №-si | Kimə buraxılmışdır (təşkilatın adı) | Hansı həcmdə buraxılmışdır | Qalıq | Anbarın nəzarət qeydi (imza, tarix) |
|---|---|---|---|---|---|---|
| | | | | | | |

---

*«Gömrük işi sahəsində cinayətlər və gömrük qaydalarının pozulması haqqında işlər üzrə Azərbaycan Respublikası məhkəmələrinin və gömrük orqanlarının qərarları əsasında müsadirə edilmiş, habelə malların gömrük rəsmiləşdirilməsi*

*zamanı bağlanmış girov müqavilələri*
*üzrə müqavilə öhdəliklərinin yerinə*
*yetirilməməsi nəticəsində satışa*
*çıxarılmış, həmçinin dövlətin xeyrinə*
*maldan imtina gömrük rejimi üzrə*
*daxil olmuş malların, nəqliyyat*
*vasitələrinin və digər əşyaların*
*qəbulu, uçotu, qiymətləndirilməsi,*
*satışı və məhv edilməsi*
*Qaydaları»na*
*Əlavə № 3*

# Müsadirə edilmiş malların anbar qeydiyyatı Kitabı

| Sıra №-si | Malın adı (artikulu, markası və s.) | Müsadirə qərarının | | Haradan daxil olmuşdur | Anbara daxil olması tarixi | Ölçü vahdi | Sayı | 1 vahid malın qiyməti (manat) | Satış məbəği (manat) | Satış tarixi və qaimənin nömrəsi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | №-si | tarixi | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |

---

*«Gömrük işi sahəsində cinayətlər və*
*gömrük qaydalarının pozulması*
*haqqında işlər üzrə Azərbaycan*
*Respublikası məhkəmələrinin və*
*gömrük orqanlarının qərarları*
*əsasında müsadirə edilmiş, habelə*
*malların gömrük rəsmiləşdirilməsi*
*zamanı bağlanmış girov müqavilələri*
*üzrə müqavilə öhdəliklərinin yerinə*
*yetirilməməsi nəticəsində satışa*
*çıxarılmış, həmçinin dövlətin xeyrinə*
*maldan imtina gömrük rejimi üzrə*
*daxil olmuş malların, nəqliyyat*
*vasitələrinin və digər əşyaların*
*qəbulu, uçotu, qiymətləndirilməsi,*
*satışı və məhv edilməsi*
*Qaydaları»na*
*Əlavə № 4*

# «Azərterminalkompleks» XƏB-nin müsadirə edilmiş mallar saxlanılan anbarına ____________________ gömrükxanasından 200_____ ilin ______ rübü üzrə daxil olmuş və satılmış mallar üzrə Hesabat

| Sıra №-si | Malın adı | Daxil olma vaxtı | Qərar | | Ölçü vahidi | Sayı | Qiyməti | Məbləği | Satıldığı vaxt | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | № | tarix | | | | | | |
| 1 | 2 | 3 | | | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 1 | | | | | | | | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2 | | | | | | | | | | |
| 3 | | | | | | | | | | |
| 4 | | | | | | | | | | |
| 5 | | | | | | | | | | |

«Azərterminalkompleks» XƏB-nin direktoru ____________________________

«Azərterminalkompleks» XƏB-nin Baş mühasibi ____________________________

---

*«Gömrük işi sahəsində cinayətlər və gömrük qaydalarının pozulması haqqında işlər üzrə Azərbaycan Respublikası məhkəmələrinin və gömrük orqanlarının qərarları əsasında müsadirə edilmiş, habelə malların gömrük rəsmiləşdirilməsi zamanı bağlanmış girov müqavilələri üzrə müqavilə öhdəliklərinin yerinə yetirilməməsi nəticəsində satışa çıxarılmış, həmçinin dövlətin xeyrinə maldan imtina gömrük rejimi üzrə daxil olmuş malların, nəqliyyat vasitələrinin və digər əşyaların qəbulu, uçotu, qiymətləndirilməsi, satışı və məhv edilməsi Qaydaları»na*
*Əlavə № 5*

# «Azərterminalkompleks» XƏB-nin müsadirə edilmiş mallar saxlanılan ____________________ anbarına ____________________ 200_____ ilin ______ rübü üzrə daxil olmuş və satılmış mallar üzrə Hesabat

| **Sıra №-si** | **Malın adı** | **Daxil olma vaxtı** | **Qərar** | | **Ölçü vahidi** | **Sayı** | **Qiyməti** | **Məbləği** | **Satıldığı vaxt** | **Qeyd** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | **№** | **tarix** | | | | | | |
| **1** | **2** | **3** | | | **5** | **6** | **7** | **8** | **9** | **10** |
| 1 | | | | | | | | | | |
| 2 | | | | | | | | | | |
| 3 | | | | | | | | | | |
| 4 | | | | | | | | | | |
| 5 | | | | | | | | | | |

«Azərterminalkompleks» XƏB-nin anbar təsərrüfatının təşkili şöbəsinin rəisi ____________________________

---

*«Gömrük işi sahəsində cinayətlər və gömrük qaydalarının pozulması haqqında işlər üzrə Azərbaycan Respublikası məhkəmələrinin və*

*gömrük orqanlarının qərarları
əsasında müsadirə edilmiş, habelə
malların gömrük rəsmiləşdirilməsi
zamanı bağlanmış girov müqavilələri
üzrə müqavilə öhdəliklərinin yerinə
yetirilməməsi nəticəsində satışa
çıxarılmış, həmçinin dövlətin xeyrinə
maldan imtina gömrük rejimi üzrə
daxil olmuş malların, nəqliyyat
vasitələrinin və digər əşyaların
qəbulu, uçotu, qiymətləndirilməsi,
satışı və məhv edilməsi
Qaydaları»na
Əlavə № 6*

*Təsdiq edirəm:*

*«Azərterminalkompleks» XƏB-nin
direktoru*

______________________

*«____»_________________
200_____ il*

# Malların məhv edilməsi haqqında AKT № ______

Biz aşağıda imza edənlər:

1. Komissiyanın sədri: ________________________________________________

2. ____________________________________________________________

3. ____________________________________________________________

4. ____________________________________________________________

5. ____________________________________________________________

Bu aktı tərtib etdik, ondan ötrü ki, aşağıda adları göstərilən müsadirə edilmiş mallar «Azərterminalkompleks» XƏB-nin anbarından «____»___ _______________ 200_____ il tarixli «____» saylı ekspertiza aktına (və s.) əsasən öz keyfiyyətini itirdiyi üçün (və yaxud) çıxarılaraq məhv edildi.

| Sıra №-si | Malın adı (markası, artikulu və s.) | Ölçü vahidi | Miqdarı | Daxil olduğu tarix | Haradan daxil olub | Qeyd |
|---|---|---|---|---|---|---|
| | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |

Aktın düzgünlüyünü öz imzalarımızla təsdiq edirik:

1. ____________________________

2. ____________________________

3. ____________________________

4. ____________________________

5. ____________________________

---

***«Azərbaycan Respublikası Mərkəzi İcra Hakimiyyəti Orqanlarının Normativ-hüquqi Aktlarının Bülleteni»ndə dərc edilmişdir (2000-ci il, № 4, səh. 20) («VneshExpertService» LLC).***

---

*© VneshExpertService LLC*